Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin
Polis Akademiyasının

# STRATEJİ İNKİŞAF PLANI
# (2025-2030)

BAKI-2025

MÜNDƏRİCAT


1. Akademiyanın tarixi
2. Akademiyanın missiyası, gələcəyə baxışı və dəyərləri
3. Akademiyanın GZİT (SWOT) təhlili
4. Akademiyanın strateji məqsəd və hədəfləri
5. Akademiyanın strateji baxışı
6. Keyfiyyət və kəmiyyət göstəriciləri
7. Maliyyə təminatı
8. Fəaliyyətlərin monitorinqi və qiymətləndirilməsi

## 1. Akademiyanın tarixi

Polis Akademiyası sıravi milis nəfərləri və komandir kadrları hazırlayan məktəb kimi 1921-ci il sentyabr ayının 28-də Azərbaycan Respublikası Xalq Daxili İşlər Komissarlığının qərarı ilə təsis edilmişdir. Lakin 1920-ci ilin ortalarından sovet hakimiyyətinin tətbiq etdiyi idarəçilik sistemi əvvəllər mövcud olan bütün strukturları sıradan çıxardığı üçün təkcə sıravi milis işçilərindən ibarət kadr hazırlamaq yeni yaradılmış DİO-nun kadr tələbatını ödəyə bilməzdi. Həmin vaxtlar sıravi milis kadrları ilə yanaşı, ali milis kadrlarına, xüsusilə də komandir heyətinə böyük ehtiyac var idi. Bu zərurəti nəzərə alan Xalq Komissarları Soveti 1922-ci ilin mart ayında öz qərarı ilə milis məktəbini yenidən quraraq onu sıravi milis kadrları hazırlayan məktəbdən komandir heyəti hazırlayan məktəb statusuna keçirdi. Bu məktəbdə təhsil müddəti bir il müəyyənləşdirildi.

Məktəb təşkil edildiyi ilk gündən 1936-cı ilədək Bakı şəhərində, Qoqol (indiki Mərdanov qardaşları) küçəsindəki 24 nömrəli binada, daha sonra isə İçərişəhərdəki Hərbi Komendantlıqla üzbəüz binada fəaliyyət göstərmişdir. 1936-cı ilin may ayında isə Xalq Daxili İşlər Komissarlığının əmri ilə Mərdəkan qəsəbəsində sahibkar Kəblə Məmməd Bağır oğlu Hüseynova məxsus binaya köçürülmüş və bugünədək həmin ünvanda fəaliyyət göstərməkdədir.

1954-cü ildən etibarən məktəb SSRİ-nin ayrı-ayrı regionları üçün kadrlar hazırlamağa başlamışdır. 1957-ci ildə Bakı Milis Məktəbi SSRİ DİN-in Bakı Xüsusi Orta Milis Məktəbinə çevrilmişdir. Həmin illərdə məktəb əyani, qiyabi şöbələr və təkmilləşdirmə kursları vasitəsilə Gürcüstan, Tacikistan, Qazaxıstan, Türkmənistan, Tatarıstan, Dağıstan, Çeçenistan-İnquşetiya, Şimali Osetiya, Kabarda-Balkariya, Kalmıkiya, Altay, İrkutsk, Krasnodar, Kuybışev, Novosibirsk, Omsk, Kemerovo, Saratov və onlarca başqa şəhər və respublikalar üçün peşəkar kadrlar hazırlayırdı. 1988-ci ildə isə xarici ölkələrdən də, o cümlədən Kampuçiya və Qvineya-Bisaudan olan 37 kursant məktəbdə təhsil almışlar.

70-80-ci illər Bakı Orta Milis Məktəbinin tarixində özünəməxsus yer tutur. Ümummilli Lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə milis orqanlarına göstərdiyi qayğı və tələbkarlıq sayəsində Bakı Xüsusi Orta Milis Məktəbi və onun maddi-texniki bazası inkişaf etmiş, kadr potensialı daha da möhkəmlənmiş və akademiya səviyyəsinə qədər yüksəlmişdir.

Azərbaycan Respublikası Prezidentinin 23 may 1992-ci il tarixli 782 saylı Fərmanı və Nazirlər Kabinetinin 9 iyun 1992-ci il tarixli 321 saylı qərarına əsasən Bakı Xüsusi Orta Milis Məktəbi zəminində Polis Akademiyası yaradılmışdır. Az bir müddət ərzində Akademiyaya I dərəcəli ali təhsil müəssisəsi statusu verilmişdir.

Ümummilli Lider Heydər Əliyev respublikaya ikinci dəfə rəhbərlik etdiyi dövrdə də Polis Akademiyasının inkişafını diqqət mərkəzində saxlamışdır. Ulu Öndərin Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Polis Akademiyasının 75 illiyi münasibətilə Akademiyanın kollektivinə ünvanlandığı 1996-cı il 27 sentyabr tarixli təbrik məktubunda bu ali təhsil

müəssisəsinin fəaliyyətinə yüksək qiymət verilərək, onun gələcəyinə böyük inam ifadə olunurdu: “İnanıram ki, Polis Akademiyası müstəqil Azərbaycan Respublikası üçün bundan sonra da yüksək peşə hazırlığına malik sağlam və möhkəm əqidəli, milli dövlətçiliyimizə sadiq polis zabitləri yetişdirəcəkdir”.

DİO-nun peşəkar kadrlarla təmin edilməsi baxımından Polis Akademiyasının oynadığı rolu dərindən dərk edən Ulu Öndər 2 iyul 2002-ci il tarixində Azərbaycan polisinin yaranmasının 84-cü ildönümü münasibətilə “Respublika” sarayındakı çıxışında daxili işlər nazirinə Polis Akademiyasını genişləndirməyi tapşırmış və bu işin həyata keçirilməsi üçün əlavə vəsait ayırmışdı. Həmin çıxışının böyük bir hissəsini Polis Akademiyasının daha da inkişaf etdirilməsi və təkmilləşdirilməsi, Azərbaycan polisinin XXI əsrdə yeni nəsil kadrlarla təmin olunması ilə bağlı məsələlər üzərində quran Ulu Öndər demişdi: “Akademiyanı genişləndirin. Özünüzə mütəxəssis hazırlayın. Polis orqanları, Daxili İşlər Nazirliyi silahlı qüvvədir. Yaxşı mütəxəssis polis kadrları hazırlamaq lazımdır. Bunun üçün də xüsusi məktəbdə təhsil alınmalıdır. Mən demişəm: polis peşəsi çətin, ağır peşədir. Amma şərəfli peşədir. Kim özünü bu peşəyə həsr edirsə, o, həmişə xalq, millət içində nüfuzlu adam olacaqdır. Sağlığında da, dünyasını dəyişəndən sonra da”.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilk dəfə 2007-ci il 2 iyul tarixində Azərbaycan polisinin yaranmasının 89-cu ildönümünə və Polis Akademiyasının 2006-2007-ci tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasimdə iştirak etmişdir. Mərasimdə çıxış edən cənab Prezident bildirmişdir: “Mən bu gün çox şadam ki, burada gördüyüm işlər yüksək səviyyədədir. Burada oxumaq üçün, yaxşı təhsil almaq üçün bütün imkanlar var. Ən müasir avadanlıq, gözəl binalar, tədris korpusları, yeməkxana, yataqxanalar, yəni gözəl təhsil almaq üçün bütün şərait var. Polis Akademiyasının da rolu artır. Çünki Polis Akademiyasında oxuyan kursantlar müasir tələblərə cavab verməlidirlər, ona görə tədris prosesinə çox böyük diqqət yetirilməlidir. Akademiyanı bitirən kursantlar ən yüksək meyarlara, ən yüksək tələblərə cavab verməlidirlər”.

2013-cü il iyulun 2-də Azərbaycan polisinin yaranmasının 95 illik yubileyi günündə Daxili İşlər Nazirliyi Polis Akademiyasının “Heydər Əliyev Mərkəzi”nin açılışı olmuş, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev açılışda iştirak etmişdir. “Heydər Əliyev Mərkəzi” ilə tanışlıqdan sonra Prezident İlham Əliyev açılış nitqində görülən işləri və “Heydər Əliyev Mərkəzi”nin əhəmiyyətini xüsusi vurğulayaraq qeyd etmişdir: “Çox gözəl Mərkəzdir, çox gözəl memarlıq əsəridir, eyni zamanda, daxili tərtibat da göz oxşayır. Əminəm ki, bu Mərkəz çox səmərəli fəaliyyət göstərəcək və Akademiyada təhsil alan kadrların hazırlanmasında Mərkəzin çox böyük rolu olacaqdır”.

Polis Akademiyasının inkişafını xüsusi diqqət mərkəzində saxlayan Prezident İlham Əliyev 2018-ci il dekabrın 25-də yeni tədris binasının açılışını etmiş və yaradılan şəraitlə yaxından tanış olmuşdur.

“Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Nizamnaməsi”nə

əsasən, akademiya ali və əlavə təhsil proqramlarını həyata keçirən, fundamental, nəzəri-metodoloji, pedaqoji-metodiki və tətbiqi elmi tədqiqatlar aparan xüsusi təyinatlı dövlət ali təhsil müəssisəsi kimi fəaliyyət göstərir və hüquqi şəxs statusuna malikdir. Akademiyada müasir təhsil texnologiyaları əsasında: əlavə təhsil proqramı üzrə – ixtisasartırma, kadrların yenidən hazırlanması, stajkeçmə, təkrar ali təhsil; ali təhsilin hər üç səviyyəsi – bakalavriat, magistratura və doktorantura üzrə mütəxəssis hazırlığı həyata keçirilməklə müvafiq elmi araşdırmalar aparılır.
1992-ci ildən indiki ad və statusla fəaliyyət göstərən  Polis Akademiyası dinamik inkişaf edən elmi-pedaqoji təhsil müəssisəsidir. Bu təhsil ocağı zamana görə daim dəyişir, məzmunca yenilənir, keyfiyyətcə zənginləşir. Azərbaycanda müasir dövrün ən qabaqcıl standartlarına uyğun olaraq təkmilləşən hüquqi dövlət mexanizmlərinin tərkib hissəsi kimi Akademiyanın da qarşısına yeni vəzifələr qoyulur. Məqsəd – zamanla ayaqlaşan, onun nəbzini tutan, həm fiziki, həm intellektual, həm də dünyagörüşü baxımından müasir tələblərə cavab verən polis əməkdaşlarının  hazırlanmasıdır. Müasir Azərbaycan polisi nəinki fiziki cəhətdən hazırlıqlı, müəyyən peşə vərdişlərinə yiyələnmiş əməkdaş olmalı, o, həmçinin yüksək erudisiyalı, zəngin dünyagörüşlü intellekt sahibi kimi fərqlənməlidir. XXI əsr polisinə ünvanlanan bu keyfiyyətləri təhsilalanlara aşılamaq üçün Polis Akademiyası daim qabaqcıl metodlara, pedaqoji texnologiyalara üz tutur.

## 2. Akademiyanın missiyası, gələcəyə baxışı (vizyonu) və dəyərləri

Akademiyanın missiyası: Daxili İşlər Nazirliyi üçün fiziki və mənəvi cəhətdən sağlam və peşəkar kadrlar hazırlamaq
Gələcəyə baxışımız ( vizyonumuz): 2030-cu ilə qədər dünyanın polis hazırlığı sahəsində fəaliyyət göstərən ən azı 30 qabaqcıl təhsil müəssisəsi ilə əməkdaşlıq quraraq, beynəlxalq standartlara cavab verən, innovativ, əməkdaşlığa açıq olan xüsusi təyinatlı bir təhsil müəssisəsinə çevrilmək.
Dəyərlərimiz:
1) Qanunçuluq – Polis Akademiyasının bütün fəaliyyətlərini hüquqa və qanunlara uyğun həyata keçirmək;
2) Hüquq mədəniyyəti –  Gələcək polis zabitləri olan kursantları qanunlara hörmət ruhunda tərbiyə etmək;
3) İnsan hüquq və azadlıqlarına hörmət - Hər kəsin şəxsiyyətinə, ləyaqətinə və hüquqlarına hörmətlə yanaşmaq;
4) Vətənpərvərlik – Daima dövlətə və xalqa sadiqlik nümayiş etdirmək;
5) Peşəkarlıq – Təhsilverənlərin peşəkarlıq səviyyəsinin daima artırılması və tədris prosesinə praktiki əməkdaşların cəlb edilməsini təmin etmək;
6) Etik normalara əməl etmək – Polis Akademiyası əməkdaşları və təhsilalanlar yüksək əxlaqi keyfiyyətlərə sahib olmalı və vəzifələrini vicdanla yerinə yetirməlidirlər;

7) Yüksək fiziki və psixoloji dayanıqlılıq – Daima yüksək fiziki və psixoloji dayanıqlılığa malik olmaq;
8) Yüksək nizam-intizam – Əməkdaş və təhsilalanlar öz xidməti vəzifələrinin icrasında yüksək nizam-intizam nümayiş etdirməlidirlər;
9) Qətiyyətlilik – Cinayətkarlığa qarşı mübarizədə və qanunların icrasında tərəddüdsüz və prinsipial davranmaq;
10) Ədalətlilik və bərabərlik – Daimi və dəyişkən heyətə xidməti münasibətdə ayrı-seçkilik etmədən obyektiv və qərəzsiz yanaşmaq;
11) Keyfiyyətlilik – Təlim-tədris prosesinin təlim nəticələrinə və keyfiyyət standartlarına uyğunluğunu təmin etmək.

**3. Akademiyanın GZİT (SWOT) təhlili**

Güclü tərəflər:
1) "Hüquqşünaslıq" ixtisası üzrə təhsilin bakalavriat, magistratura və doktorantura səviyyələrində təşkili;
2) Rəqəmsal texnologiyalarla təchiz olunmuş müasir tədris auditoriyaları və təlim resursları;
3) İxtisaslara uyğun praktiki tədris üçün geniş maddi-texniki baza (qapalı atıcılq tiri, kriminalistik şəhərcik və laboratoriya, informasiya təhlükəsizliyi laboratoriyası, "Rayon Polis Şöbəsi" tədris modulu, idman zalları, idman meydançaları, məhkəmə zalı və s.);
4) Yüksək nizam-intizam əsasında formalaşmış təlim-tədris prosesi;
5) Məzunların daxili işlər orqanlarında xidməti vəzifələrə təyinatı;
6) Tədrisin təcrübəli, praktiki biliklərə malik professor-müəllim heyəti tərəfindən aparılması;
7) Dərslərə sistemli olaraq baş idarə rəisləri və müavinləri, ərazi polis orqanları əməkdaşları, eləcə də məhkəmə hakimlərinin, vəkillərin və digər ali təhsil müəssisələrinin təcrübəli professor-müəllim heyətinin cəlb olunması;
8) Məzunlara "polis leytenantı" və əlavə olaraq "hərbi leytenant" rütbəsinin verilməsi;
9) Əlaçı məzunlara "polis baş leytenantı" rütbəsinin təqdim olunması;
10) Kursantların təhsil dövrünün xidmət müddətinə daxil edilməsi;
11) Əlaçı məzunların DİO-da digər məzunlara nisbətən bir pillə yüksək vəzifələrə təyin olunması;
12) Kursantların yataqxana, geyim, yemək və tibbi xidmət ilə ödənişsiz təmin olunması;
13) Kursantların aylıq təqaüdlərlə təmin edilməsi;
14) Bütün tədris materiallarının təhsilalanlara pulsuz təqdim olunması.

Zəif tərəflər:
1) Pedaqoji heyətin müasir tədris metodikalarına dair təlimlərə davamlı şəkildə cəlb edilməməsi;

2) Akademik heyətin nüfuzlu nəşrlərdə çap edilən elmi əsərlərinin sayının az olması;
3) Kursantların elmi-tədqiqat fəaliyyətinə məhdud şəkildə cəlb olunması;
4) Akademik heyətin xarici dil biliklərinin zəif olması;
5) Elmi dərəcəyə malik müəllimlərin sayının az olması;
6) Tədris prosesinə cəlb edilən professor-müəllim heyətinin tərkibində elmlər doktoru və professorların olmaması;
7) Dərslərin daha çox ənənəvi tədris metodlarına əsaslanması;
8) Tədrisin elektron idarəetmə sisteminin imkanlarından yetərincə istifadə edilməməsi;
9) Xüsusi təyinatlı təhsil müəssisəsinin spesifikliyinə müvafiq olaraq kursantların həftəlik və illik dərs yükünün çox olması;
10) Akademiya daxilində şöbə və struktur bölmələri arasında koordinasiyanın zəif olması;
11) Bəzi əməkdaşlarda İKT bacarıqlarının kifayət qədər inkişaf etməməsi.

İmkanlar:

1) Professor-müəllim heyətinin yaş tərkibinin cavanlaşması ilə kadr potensialının gücləndirilməsi;
2) Xarici və yerli ali təhsil müəssisələri ilə əməkdaşlıq imkanlarının artırılması;
3) Kursantların ərazi polis orqanlarında praktiki təcrübəyə asan çıxış imkanının təmin edilməsi;
4) Rəqabətli əməkhaqqı siyasəti ilə təcrübəli mütəxəssisləri cəlb etmək imkanının yaradılması;
5) Daxili işlər orqanlarında ixtisaslı kadrlara olan tələbatın artırılması;
6) Yeni istifadəyə verilmiş müasir tədris korpusu və yataqxana komplekslərindən istifadə imkanının yaradılması;
7) “Hüquqşünaslıq” və “İnformasiya təhlükəsizliyi” ixtisasları üzrə ödənişsiz təhsil imkanlarının təmin edilməsi.

Təhdidlər:

1) Elmi dərəcəyə malik professor-müəllim heyətinin əsasən yaşlı nəsildən ibarət olması;
2) Digər ali təhsil müəssisələrində “Hüquqşünaslıq” və “İnformasiya təhlükəsizliyi” ixtisasları üzrə yeni qəbul yerlərinin açılması;
3) Gənc əməkdaşlar sırasından doktoranturaya qəbul olanların sayının az olması;
4) Kursantların Akademiyanın spesifik xüsusiyyətindən irəli gələrək günün nizam qaydaları daxilində təhsil almaları;
5) Kursantların internetə çıxış imkanlarının məhdudluğu.

## 4. Akademiyanın strateji məqsəd və hədəfləri

Məqsəd 1. Akademiyanın idarəetmə sisteminin təkmilləşdirilməsi

Hədəf 1.1. Təşkilati-idarəetmə strukturunun yenilənməsi və daxili tənzimləyici sənədlərin təkmilləşdirilməsi

1.1.1. Yeni struktur bölmələrinin, kollegial orqanların yaradılması və onlar arasında vəzifə bölgüsünün aparılması;
1.1.2. “Elektron Akademiya” idarəetmə sisteminin (ESD, Sənədlərin icrasına elektron nəzarət mexanizmi ) işinin təkmilləşdirilməsi;
1.1.3. Normativ-hüquqi bazanın yenilənməsi və maraqlı tərəflər üçün əlçatanlığının təmin edilməsi;
1.1.4. Təhsilalanların və digər maraqlı tərəflərin kollegial orqanlarda təmsil olunmasının təmin edilməsi;
1.1.5. İnsan resursları siyasətinin hazırlanması və işəgötürmə mexanizminin təkmilləşdirilməsi.

Hədəf 1.2. Daxili keyfiyyət təminatı sisteminin qurulması
1.2.1. Daxili keyfiyyət təminatı komissiyasının işinin təkmilləşdirilməsi;
1.2.2. Akademiyanın keyfiyyət siyasəti sənədinin hazırlanması;
1.2.3. Akademiyanın keyfiyyət təminatı bələdçisi (qaydalar toplusu) sənədinin hazırlanması;
1.2.4. Daxili və xarici maraqlı tərəflər arasında müxtəlif məzmunlu rəy sorğularının keçirilməsi;
1.2.5. Daimi heyətin keyfiyyət mədəniyyətinin yüksəldilməsi məqsədilə mütəmadi olaraq tədbirlərin həyata keçirilməsi;
1.2.6. Kafedralarda keyfiyyət mədəniyyətinin formalaşmasına məsul koordinatorların (keyfiyyət elçiləri) seçilərək təyin edilməsi.

Məqsəd 2. Təhsilin keyfiyyətinin yüksəldilməsi
Hədəf 2.1. Təhsilverənlərin pedaqoji və peşəkar bacarıqlarının artırılması
2.1.1. Professor-müəllim və inzibati heyətin peşəkarlıq səviyyəsinin yüksəldilməsi məqsədilə təlimlərin keçirilməsi;
2.1.2. Professor-müəllim heyətinin yerli ali təhsil müəssisələrində ixtisasartırma, təkmilləşdirmə və stajkeçmələrinin təşkil edilməsi;
2.1.3. Professor-müəllim heyətinin reytinq cədvəlinin hazırlanması;
2.1.4. Akademik heyətin sıralarına daha çox elmi potensiallı gənc kadrların cəlb edilməsi.
Hədəf 2.2. Keçirilən dərslərin keyfiyyətinin artırılması
2.2.1. Tədris prosesində müasir təlim metodlarının tətbiqinin genişləndirilməsi;
2.2.2. Dərslərin monitorinqi mexanizminin hazırlanması;
2.2.3. Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi;
2.2.4. Yeni qiymətləndirmə forma və mexanizmlərinin tətbiqi;
2.2.5. Təhsilalanların əldə etdikləri tədris nailiyyətlərinə görə motivasiya edici mükafatlandırma mexanizminin tətbiq edilməsi;

2.2.6. Dərslərə mütəmadi olaraq təcrübəli polis əməkdaşlarının, alimlərin və mütəxəssislərin dəvət edilməsi;
2.2.7. Təhsilalanların İKT-dən istifadə bacarıqlarının inkişaf etdirilməsi.

Hədəf 2.3. Akademiyanın ərazi polis orqanları ilə qarşılıqlı əlaqələrinin genişləndirilməsi.
2.3.1. Tədris planının yenilənməsi və fənlərin optimallaşdırılması;
2.3.2. Mövzu-təqvim planında təcrübə dərslərinin həcminin artırılması;
2.3.3. Təhsilalanların sosial və emosional bacarıqlarının inkişaf etdirilməsi;
2.3.4. Təhsilalanların təcrübə qaydaları və qiymətləndirmə meyarlarının təkmilləşdirilməsi;
2.3.5. İxtisas kafedraları əməkdaşlarının müvafiq baş idarə və ərazi polis orqanları ilə əlaqələrinin genişləndirilməsi.

Məqsəd 3. Akademiyanın elmi-tədqiqat və innovasiya fəaliyyətinin genişləndirilməsi
Hədəf 3.1. Elmi strategiyanın və antiplagiat siyasətinin hazırlanması
3.1.1. Akademiyanın elmi-tədqiqat strategiyasının hazırlanması;
3.1.2. Antiplagiat və akademik dürüstlük siyasəti sənədinin hazırlanması;
3.1.3. Tədqiqatçıların elmi-tədqiqat fəaliyyətinin stimullaşdırılması üçün mexanizmlərin hazırlanması.

Hədəf 3.2. Tədqiqatçıların elmi-tədqiqat bacarıqlarının və imkanlarının inkişaf etdirilməsi
3.2.1. Tədqiqatçıların, eləcə də magistr və doktorantların elmi-tədqiqat bacarıqlarının inkişaf etdirilməsi üçün təlimlərin təşkil edilməsi;
3.2.2. Tədqiqatçıların beynəlxalq elmi bazalara çıxışının təmin edilməsi;
3.2.3. "Akademiyanın Elmi Xəbərləri" jurnalının fəaliyyətinin beynəlxalq elmmetrik bazaların tələbləri əsasında təkmilləşdirilməsi;
3.2.4. Kitabxananın fəaliyyətinin təkmilləşdirilməsi və beynəlxalq elmmetrik bazalara çıxışın əldə edilməsi;
3.2.5. Digər ali təhsil müəssisələri ilə elmi-tədqiqat sahəsində qarşılıqlı əlaqə və təcrübə mübadiləsinin genişləndirilməsi;
3.2.6. Aktual mövzular üzrə yerli və beynəlxalq elmi-praktik konfransların keçirilməsi;
3.2.7. Tədqiqatçıların beynəlxalq elmi tədbirlərdə (konfrans, seminar və s.) iştirakının təşkil edilməsi.

Hədəf 3.3. Gənc tədqiqatçıların stimullaşdırılması və Kursant Elmi Cəmiyyətinin (KEC) fəaliyyətinin genişləndirilməsi
3.3.1. Kursantları elmi-tədqiqat fəaliyyətinə həvəsləndirmək üçün stimullaşdırıcı mexanizmlərin hazırlanması;
3.3.2. Kafedraların nəzdində fəaliyyət göstərən dərnəklərin fəaliyyətinin

instensivləşdirilməsi;
3.3.3. Digər ali təhsil müəssisələrinin TEC-ləri ilə qarşılıqlı əlaqələrin yaradılması və birgə tədbirlərin həyata keçirilməsi;
3.3.4. KEC üzvlərinin tədqiqat bacarıqlarının formalaşdırılması üçün seminarların təşkil edilməsi;
3.3.5. KEC-nin illik konfranslarının keçirilməsi və konfrans materiallarının toplu halında çap olunması.

Hədəf 3.4. Elmi nəticələrin tədris prosesinə və polisin xidmət fəaliyyətinə inteqrasiyası
3.4.1. Magistratura təhsili üzrə tədris planının yenilənməsi və təlim-tədris prosesinin tədqiqat əsaslı olmasının təmin edilməsi;
3.4.2. Magistratura səviyyəsini bitirən əməkdaşların doktorantura üzrə təhsil almağa təşviq edilməsi;
3.4.3. Magistr və doktorantların əmək bazarı ( ərazi polis orqanları) ilə qarşılıqlı əlaqəsinin təmin edilməsi;
3.4.4. Elmi-tədqiqat mövzularının polisin əsas fəaliyyət istiqamətlərinə uyğunluğunun təmin edilməsi;
3.4.5 Əldə olunan elmi nəticələrin tədris prosesinə və cinayətkarlığa qarşı mübarizədə tətbiqi mexanizminin hazırlanması.

Məqsəd 4. Akademiyanın beynəlmiləlləşməsi və xarici əlaqələr sisteminin genişləndirilməsi
Hədəf 1. Polis hazırlığı sahəsindəki beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə imkanların genişləndirilməsi
4.1.1. Akademiyanın Beynəlmiləlləşmə siyasəti sənədinin hazırlanması;
4.1.2. Polis hazırlığı həyata keçirilən xarici ali təhsil müəssisələri ilə yeni əlaqələr sisteminin qurulması;
4.1.3. Akademik və inzibati heyət, eləcə də təhsilalanlar üçün xarici dil biliklərinin təkmilləşdirilməsi imkanının yaradılması.

Hədəf 2. Xarici ölkələrin polis hazırlığı həyata keçirilən təhsil müəssisələri ilə təlim-tədris və elmi-tədqiqat sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi
4.2.1. Akademik və inzibati heyətin tərəfdaş ölkələrin polis hazırlığı həyata keçirən təhsil müəssisələrində ixtisasartırma və stajkeçmə kurslarına cəlb edilməsi;
4.2.2. Akademiya əməkdaşlarının nüfuzlu xarici ali təhsil müəssisələri və polis hazırlığı həyata keçirilən təhsil müəssisələrində magistratura və doktorantura pilləsi üzrə təhsil proqramlarına cəlb olunması;
4.2.3. Xarici ölkələrin təhsil və elmi-tədqiqat mərkəzləri ilə polisin fəaliyyət istiqamətlərinə uyğun birgə elmi tədqiqatların aparılması;

4.2.4. Xarici ölkələrin polis hazırlığı həyata keçirilən təhsil müəssisələri ilə qarşılıqlı olaraq müəllim mübadiləsinin həyata keçirilməsi;
4.2.5. Xarici ölkələrin polis hazırlığı həyata keçirilən təhsil müəssisələri ilə kursantlar üçün təcrübə proqramlarının həyata keçirilməsi;
4.2.6. Xarici ölkələrin polis hazırlığı həyata keçirilən təhsil müəssisələri ilə birgə elmi konfransların təşkil edilməsi;
4.2.7. Kursantların beynəlxalq elmi yarışmalarda iştirakının həyata keçirilməsi;
4.2.8. Tədqiqat materiallarının nüfuzlu elmi jurnallarda nəşr olunması üçün imkanların yaradılması.
Məqsəd 5: Hüquqi maarifləndirmə və təbliğat işinin genişləndirilməsi
Hədəf 1. Gənclərin Daxili İşlər Nazirliyi sistemində təhsilə və xidmətə təşviq edilməsi
5.1.1. Sağlam düşüncəli və yüksək intellektli gənclərin ixtisas seçimində Polis Akademiyasına üstünlük verməsinin təmin edilməsi məqsədilə orta təhsil müəssisələrində təbliğat işlərinin aparılması;
5.1.2. Akademiyada təhsil almağın üstünlükləri və tədris prosesi barəsində videoçarxların KİV və sosial şəbəkələrdə yayımlanması;
5.1.3. Akademiyada ictimaiyyəti məlumatlandırma işinin təkmilləşdirilməsi.

Hədəf 2. Gənclərin cinayətkarlıq və zərərli vərdişlərdən qorunması, həmçinin hüquq mədəniyyətinin yüksəldilməsi məqsədilə maarifləndirici tədbirlərin həyata keçirilməsi
5.2.1. Polis Akademiyasının daimi və dəyişkən heyətinin iştirakı ilə ali və orta təhsil müəssisələrində narkomaniya, erkən nikah, dini radikalizm mövzularında maarifləndirici tədbirlərin keçirilməsi;
5.2.2. Hüquqazidd əməllərin zərərləri və cinayətlərin cəmiyyətdə yaratdığı təhlükələr haqqında maarifləndirici videoçarxların hazırlanaraq yayımlanması;
5.2.3. "Hüquq klinikası"nın işinin yenidən təşkil edilməsi.

**5. Akademiyanın strateji baxışı**

1. Qısamüddətli dövr üçün strateji baxış. İdarəetmə sistemini inkişaf etdirmək, təhsil proqramlarını müasirləşdirmək və təhsilverənlərin kompetensiyalarını artırmaqla əmək bazarının dəyişən tələblərinə uyğun kadr hazırlığı həyata keçirilməsini təmin etmək.

Polis Akademiyasının qısa dövr üçün strateji baxışı (vizyonu) 1-2 illik müddəti əhatə edən məqsədləri və inkişaf istiqamətlərini ifadə edir. Akademiya qısa dövr ərzində idarəetmə sisteminin təkmilləşdirilməsi, təhsil proqramlarının müasirləşdirilməsi, daimi heyətin ixtisas səviyyəsinin yüksəldilməsi və siyasət sənədlərinin hazırlanması kimi ölçülə bilən və reallaşdırılması mümkün olan hədəfləri qarşıya məqsəd qoyur. Bu məqsəd ilə yeni struktur hissələrin və ştat vahidlərinin yaradılması, tədris planlarına və fənn mövzularına əmək bazarının tələblərinə uyğun dəyişikliklərin edilməsi, müxtəlif istiqamətli təlim və

seminarların keçirilməsi, həmçinin Akademiyanın Keyfiyyət siyasəti, Elmi-tədqiqat strategiyası və Beynəlmiləlləşmə siyasəti sənədlərinin hazırlanması planlaşdırılmışdır.
2. Ortamüddətli dövr üçün strateji baxış. Beynəlxalq təcrübəni öyrənməklə cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizlik sahəsində elmi tədqiqatlar həyata keçirən mərkəzə çevrilmək.

Polis Akademiyasının orta dövr üçün strateji baxışı (vizyonu) 3-4 illik müddət ərzində elmi tədqiqat fəaliyyətini ərazi polis orqanlarının ehtiyaclarına uyğunlaşdırmaq, cinayətkarlığın səbəblərini, formalarını və dinamikasını araşdırmaqla polisin bu sahədəki fəaliyyətinin təkmilləşməsinə, preventiv tədbirlərin və effektiv mübarizə mexanizmlərinin hazırlanmasına öz töhfəsini verməkdir. Bu məqsədlə ilk öncə xarici ölkələrin polis hazırlığı həyata keçirən təhsil müəssisələrinin təcrübəsinin öyrənilməsi, birgə elmi-tədqiqat işlərinin həyata keçirilməsi, həmçinin Akademiyada təhsil alan magistrant və doktorantların (dissertantların) elmi tədqiqat mövzularının polisin əsas fəaliyyət istiqamətlərinə uyğunluğunun təmin edilməsi və əldə olunan elmi nəticələrin təlim-tədris prosesində və polisin fəaliyyətində tətbiq mexanizmlərinin qurulması nəzərdə tutulmuşdur.
1. Uzunmüddətli dövr üçün strateji baxış. Polis hazırlığı sahəsində beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə 2030-cu ilə qədər hər il ən azı 1 oxşar profilli xarici təhsil müəssisəsi ilə qarşılıqlı əməkdaşlıq müqaviləsi imzalamaq və buna müvafiq olaraq mütərəqqi təcrübəni öyrənərək tətbiq etmək.

**6. Keyfiyyət və kəmiyyət göstəriciləri**

Polis Akademiyasının Strateji İnkişaf Planında nəzərdə tutulmuş hər bir məqsəd, hədəf, alt hədəf və tədbirlər üzrə nəticə göstəriciləri müvafiq olaraq faiz və ya rəqəm ilə göstərilməklə SİP-nin icrası üzrə üzunmüddətli və illik tədbirlər planında göstərilmişdir.

Nümunə:

Məqsəd 1. Akademiyanın idarəetmə sisteminin təkmilləşdirilməsi

| Göstərici | Növü | Ölçü vahidi | Hədəf |
|---|---|---|---|
| Yeni struktur bölmələrin yaradılması | Kəmiyyət | Bölmə sayı | Zəruri struktur bölmələrin təsis əmri |
| Keyfiyyət siyasəti sənədinin hazırlanması | Keyfiyyət | Rəsmi təsdiq edilmiş sənəd | Rəsmi sənədin maraqlı tərəflər üçün əlçatanlığının təmin edilməsi |
| Daimi heyətin keyfiyyət mədəniyyətinin yüksəldilməsi məqsədilə mütəmadi olaraq maarifləndirici tədbirlərin həyata keçirilməsi. | Kəmiyyət | Nəfər | İldə ≥ 50 |
| Sənədlərin icrasına elektron nəzarət mexanizmi | Keyfiyyət | Mövcudluq | İşlək sistem |

Məqsəd 5. Hüquqi maarifləndirmə və təbliğat işinin genişləndirilməsi
Göstərici Növü Ölçü vahidi Hədəf
Ümumi təhsil müəssisələrində keçirilən təbliğat tədbirlərinin sayı Kəmiyyət Tədbir İldə ≥ 10
Maarifləndirici videoçarxların sayı Kəmiyyət Çarx İldə ≥ 5
"Hüquq klinikası" fəaliyyətinin inkişafı üzrə tədbirlər Keyfiyyət Fəaliyyət sayı İldə ≥ 3

**7. Maliyyə təminatı**

Polis Akademiyasının Strateji İnkişaf Planında nəzərdə tutulmuş tədbirlərin icrasının maliyyələşdirilməsi dövlət büdcəsi hesabına həyata keçiriləcəkdir.

**8. Fəaliyyətlərin monitorinqi və qiymətləndirilməsi**

Polis Akademiyasının Strateji İnkişaf Planının icrasının monitorinqi Akademiyanın struktur qurumu olan Təhsildə keyfiyyətin təminatı və monitorinq bölməsi tərəfindən həyata keçiriləcək və ildə iki dəfə (iyul və yanvar aylarında) olmaqla planlaşdırılmış tədbirlərin icra vəziyyətinə dair hesabat Akademiya rəisi və Elmi Şuraya təqdim ediləcəkdir. Strateji İnkişaf Planının icrasının təmin edilməsi məqsədi ilə bütün məqsəd və hədəflər üzrə uzunmüddətli (5 illik) və buna müvafiq olaraq illik tədbirlər planı hazırlanacaq, həmçinin struktur qurumların illik fəaliyyət planlarının SİP-nin icrası üzrə tədbirlər planına uyğunluğu təmin ediləcəkdir. İllik tədbirlər planı üzrə icrası tamamlanmamış fəaliyyətlərin icrasının növbəti ilə planlaşdırılması nəzərdə tutulmuşdur. Həmçinin risklər nəzərə alınaraq əmək bazarının dəyişən tələblərinə adaptivliyini təmin etmək məqsədilə SİP-yə Elmi Şuranın qərarı ilə əlavə və dəyişikliklər edilə bilər.

Strateji planlaşdırma, keyfiyyət təminatı və monitorinq bölməsi tərəfindən yarımillik və illik hesabatlar hazırlanarkən planlaşdırılmış tədbirlərin məsul struktur bölmələr tərəfindən mahiyyəti üzrə və tələb olunan zaman çərçivəsində icrasına, fəaliyyətin effektivliyinə (misal üçün əldə olunan təcrübənin tətbiqi) və davamlılığına (elmi-tədqiqat işlərinin nəticələrinin xidməti fəaliyyətdə və tədrisdə tətbiqinin davamlılığı) görə qiymətləndirməsi də həyata keçirilərək nəticələr Elmi Şurada müzakirəyə təqdim ediləcəkdir.